

# Heydər Əliyevin iradəsi ilə Azərbaycan dili dövlət dili oldu

**Bəşər tarixində hər hansı bir liderin öz dövlətinin rəmzinə çevrilməsi nadir hadisədir. Bu zirvəyə yüksələn dahi şəxsiyyətlərdən biri də ulu öndər Heydər Əliyev olmuşdur. Müasir Azərbaycanın dövlətçilik tarixi dedikdə, ilk növbədə, bütün həyatını Azərbaycan dövlətinin, xalqının inkişafına həsr etmiş, dövlətçilik salnaməmizdə silinməz izlər buraxmış, milli qürur və iftixar mənbəyimiz olan ümummilli liderimiz Heydər Əliyevi xatırlayırıq.**

XX əsrin 70-ci illərindən etibarən Azərbaycanın siyasi həyatı və bütünlükdə cəmiyyətimiz ulu öndər Heydər Əliyevin titanik səyləri sayəsində yeni inkişaf mərhələsinə qədəm qoydu. O zamandan başlayan böyük tarixi mərhələdə ulu öndər Heydər Əliyev ideyaları həyatımızın başlıca gerçəkliyi, inkişafımızın təməl daşı olaraq qalmaqdadır.

Dünya səviyyəli siyasətçi və dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının tarixində nadir şəxsiyyətlərdəndir ki, onun zəngin irsi hər zaman tarixçilərin və müxtəlif profilli tədqiqatçıların daim diqqət mərkəzində olacaqdır. Ulu öndər Azərbaycan xalqının milli dövlətçilik mübarizəsindəki misilsiz xidmətləri ilə bütün dünya azərbaycanlılarının sonsuz sevgisini qazanmışdır. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır. Ulu öndər çıxışlarının birində deyirdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycana, Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub".

Hər bir xalqın milli kimliyi onun ana dili ilə öz təsdiqini tapır. Dil xalqların dəyişməz, toxunulmaz, müqəddəs simvolu kimi çıxış edir. Azərbaycan dili də məhz belə dillərdəndir. Qədim köklərə malik olan ana dilimiz sistemli inkişaf mərhələsi keçərək, müxtəlif nəsillərin yaddaşına ötürülərək yaşayıb, cilalanıb və yeni-yeni sözlər hesabına zənginləşib. Tarix boyu öz mövcudluğunu qoruyub saxlamağı bacaran dilimiz, zaman-zaman kənar sözlərdən təmizlənərək, gözəl və saf bir dil nümunəsi kimi formalaşıb.

Ulu öndər Heydər Əliyevin dilə olan münasibəti və sevgisi onun çoxsaylı çıxışlarında aydın ifadə olunub. "Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir", həmçinin "Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik" - deyən ulu öndər təkzibolunmaz bir gerçəklikdən çıxış edib. Çünki, həqiqətən də, bir xalq üçün ən böyük mənəvi qazanc onun yaratdığı, qoruduğu təmiz, zəngin, bəlağətli doğma dilidir.

Ulu öndər Heydər Əliyev xalqın formalaşmasında, yaşamasında ana dilinin rolunu yüksək qiymətləndirmişdir: "Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur". Ulu öndər gənclərimizə məhz ana dili əsasında dünyanı dərk etməyi məsləhət görürdü. Azərbaycan gənclərinə xarici dilləri – ingilis, alman, fransız, Çin və s. dilləri öyrənməklə, ilk növbədə, öz ana dilini daha mükəmməl bilməyi tövsiyə edirdi.

Tarix göstərir ki, Azərbaycan dili müxtəlif dövrlərdə rəsmən dövlət dili kimi elan edilib bir müddət fəaliyyət göstərsə də, dövlət dili statusu uzun sürə bilməmişdir. Yalnız xalqımızın ümummilli lideri Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra milli dilimizin xilaskarı kimi tarixə öz əbədi imzasını atdı. Tam qətiyyətlə demək olar ki, ulu öndər Heydər Əliyevin keçən əsrin 70-80-ci illərində yeritdiyi fəal və ardıcıl dil siyasəti Azərbaycanda milli özünəqayıdış, milli özünüdərk və milli azadlıq ruhunu yüksəltdi. Azərbaycan dilinin dövlət dili statusuna yüksəlməsi yolunda ulu öndər Heydər Əliyevin başladığı müqəddəs milli mücadilənin tarixi bir qərinədən çox davam etmişdir. Milli tariximizə Heydər Əliyev epoxası kimi daxil olmuş 1969-2003-cü illərdə Azərbaycan dilinin hərtərəfli inkişafı yalnız rəsmi sənədlərdə deyil, sözün həqiqi mənasında, gündəlik həyatda, təcrübədə ümumişlək dilə, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə, dünya diplomatiyasına yol tapması, beynəlxalq aləmin çox mötəbər məclislərinin kürsülərindən eşidilməsi ulu öndərimizin ana dilimizin inkişafına, onun sosial-siyasi və mədəni həyatda layiqli yer tutmasına göstərdiyi qayğı və diqqətin, son dərəcə dəqiq, düşünülmüş və uzaqgörən dil siyasətinin nəticəsində mümkün olmuşdur. Bu şərəfli tarixi yolun başlanğıcı hələ 1969-cu ilin sentyabrında "Kommunist" qəzetinin (indiki "Xalq qəzeti") 50 illik yubileyində o dövr üçün, fövqəladə hadisə sayılan respublika rəhbərinin Azərbaycan dilində çıxışı ilə başlandı. Bu tarixi çıxış ziyalılara, bütün xalqa respublika rəhbərinin Azərbaycan dilinə qayğı və ehtiramı haqqında bir xəbərdarlıq idi ki, bu proses sonralar milli özünüdərkdə müstəsna rol oynadı.

1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyası hazırlanarkən respublikanın rəhbəri Heydər Əliyev şəxsən özü yaradıcı ittifaqlara xəbər göndərməli olmuşdu ki, Konstitusiyaya Azərbaycan SSR-də dövlət dilinin Azərbaycan dili olması barədə xüsusi maddə salınmasını tələb etsinlər. Nəticədə, Konstitusiyada, Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir - maddəsi təsdiq olundu. Bu cəsarətli addım müstəqil bir ölkədə deyil, milli hüquq və azadlıqların məhdudlaşdırıldığı, milli köklərin unutdurulmağa çalışıldığı, totalitar imperiyaya bağlı olan bir ölkədə, sovet respublikası olan Azərbaycanda atılırdı.

Ümummilli lider Azərbaycan dilinin qorunmasını daim diqqət mərkəzində saxlayıb. Heydər Əliyevin rəhbərliyi altında işlənib hazırlanmış və 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli fərmanları, 2002-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu dilimizin hüquqi statusunu, onun işlənməsi, qorunması və inkişafı üçün zəruri olan tədbirləri müəyyənləşdirib. Ümummilli lider çıxışları zamanı da Azərbaycan dilinin qorunması ilə bağlı dəyərli fikirlər səsləndirib.

Ən böyük azərbaycanlı olan Heydər Əliyev bizə müstəqil Azərbaycanı bəxş etdi. Bizə azərbaycançılıq ideyasını hədiyyə etdi. Ulu öndər son nəfəsinə qədər nə etdisə, ölkəsi, Vətəni və xalqı üçün etdi.

Azərbaycanlı olmağı, Azərbaycan dilində danışmağı ilə hər zaman fəxr edən Heydər Əliyevin dil siyasəti təqdirəlayiq haldır ki, özündən sonra da davam etdi. Ulu öndərin siyasi varisi Prezident İlham Əliyev ana dilinin qorunması, yaşaması və inkişafı üçün özündən əvvəl görülən işləri uğurla irəli apardı. Bundan başqa, Prezident İlham Əliyev tərəfindən 2004-cü ildə "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eləcə də 2007-ci ildə "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında", 2013-cü ildə "Azərbaycan dilinin qorunmasına xidmət edən Dövlət Proqramı" və 2018-ci ildə "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" imzalanan sərəncamlar ana dilinin həyatımızın bütün sahələrində müfəssəl tətbiqini, yayılmasını, qorunmasını gerçəkləşdirdi.

Ölkə Prezidenti İlham Əliyevin dediyi kimi, Azərbaycan dili xalqımızın mənəvi sərvəti, dünya azərbaycanlılarının həmrəyliyinin sarsılmaz təməlidir. Bu səbəbdən də onun qorunması və qayğı ilə əhatə olunması müstəqil Azərbaycanın hər bir vətəndaşının müqəddəs borcudur.

**Ayaz QULİYEV,**
**YAP Xızı rayon təşkilatının sədri**